# Açıq fikir+

aciqfikir999@mail.ru

№ 43 (429) 10 Mart 2010-cu il GÜNDƏLİK QƏZET Qiyməti 40 qəpik

# Qatarlarda qadınlar üçün ayrıca kupelar olmalıdır?

**Azərbaycanda aparılan sorğu əksər sərnişinlərin qatarlarda qadınlar və kişilər üçün ayrı-ayrı kupelərin yaradılmasına tərəfdar olduğunu üzə çıxarıb.**




Sorğunu həyata keçirən "ELS" Araşdırmalar Mərkəzindən verilən məlumata görə, sorğuya cavab verən qadınların 92,4%-i qadınlar üçün xüsusi kupelərin ayrılmasını dəstəkləyib, 3,1%-i adətən tək səyahət etmədiklərini, 3,4%-i suala cavab verməyə çətinlik çəkdiyini bildirib. Yalnız 1,1% respondent bunun fərqinin olmadığını söyləyib.

Sorğuda iştirak etmiş kişilərin də qadınların ayrıca səyahət etmələri üçün müvafiq şəraitin yaradılmasına tərəfdar olduqları üzə çıxıb. Onların 76,4%-i ayrıca "qadın kupeləri"nin təşkil edilməsini, 9,2 %-i isə "kişi kupeləri"nin təşkilini təklif ediblər.